# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

## “Texniki təhlükəsizlik haqqında”Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

“Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar onun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Qanunun tələblərinə uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;

- həmin Qanunun 16-cı maddəsində nəzərdə tutulmuş təhlükə potensiallı obyektləri istismar edən hüquqi və fiziki şəxslərin məsuliyyətinin icbari sığortası qaydası və şərtlərinə dair təkliflərini Azərbaycan Respublikası Prezidentinə təqdim etsin;

- həmin Qanunun müddəalarına uyğun olaraq texniki təhlükəsizlik sahəsində xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri və onları verən icra hakimiyyəti orqanları barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

- həmin Qanunun 5-ci maddəsində, 7-ci maddəsinin 1-ci, 2-ci və 4-cü hissələrində, 8-ci maddəsinin 2-ci hissəsində, 9-cu maddəsinin onuncu abzasında, 12-ci maddəsinin 1-ci və 2-ci hissələrində, 13-cü maddəsinin1-ci hissəsində, 14-cü maddəsinin 4-cü hissəsində, 15-ci maddəsinin 1-ci hissəsinin altıncı abzasında, 3-cü və 6-cı hissələrində, 17-ci maddəsinin 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- öz səlahiyyətləri daxilində “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, bu Qanunun 2-ci maddəsinin 2-ci və 3-cü hissələrində, 7-ci maddəsinin 3-cü hissəsində və 14-cü maddəsinin 6-cı hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

3. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 fevral 2000-ci il
№ 269